azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

Xüsusi buraxılış

№ 05 (71) ● Dekabr 2020-ci il

www.azersu.az

Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su isə sağlam həyat deməkdir”

İlham Əliyev

Zəfər paradı – qələbənin təntənəsi

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.

Zəfər paradı -

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi olub. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verib.

Dövlət başçıları əsgərləri salamlayıb. Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini səsləndirib.

Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış edib. Dövlət başçısı bildirib ki, bu gün tarixi bir gündür. Azadlıq meydanında Zəfər paradı keçirilir. Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin iştirakı bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir:

- Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi

qələbənin təntənəsi

abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək bildirib ki, Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın

sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır.

Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır. Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq.

Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

(Davamı 4-cü səhifədə)

(Əvvəli 3-cü səhifədə)

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başlayıb. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəliləyib. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirilib.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirib.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçib. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edib.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçiblər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımlayıblar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edib.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edib.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçiblər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil olub.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi olub.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak ediblər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçiblər.

Daha sonra hərbi texnikaların keçidi başlayıb.

Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Vətən müharibəsində şəhid olan əməkdaşlarımız

Məzdək Əli oğlu Eyvazlı

26 fevral 1996-cı ildə Bakı şəhərində anadan olub. 2001-cü ildə Qaradağ rayonu Lökbatan qəsəbəsindəki 288 saylı orta məktəbə gedib. 2013-cü ildə orta məktəbi bitirən Məzdək həmin il Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunub. 2017-ci ildə ali məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan M.Eyvazlı 2018-ci ildə tərxis olunub. Hərbi xidməti başa vurduqdan sonra "Azərsu" ASC-nin Qaradağ rayon Sukanal İdarəsində Abonentlərlə iş şöbəsinin su kəməri təsərrüfatında nəzarətçisi vəzifəsində çalışıb.

22 sentyabr 2020-ci ildə hərbi səfərbərliyə cəlb olunub. 29 oktyabr 2020-ci il tarixində Füzuli rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Məzdək Əli oğlu Eyvazlı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilib.

Elvin Nizami oğlu Mikayılov

01 avqust 1996-cı ildə Göyçay şəhərində anadan olub. 2004-cü ildə Göyçay şəhər 7 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialında təhsil alıb, riyaziyyat və informatika ixtisasına yiyələnib. E. Mikayılov əmək fəaliyyətinə 2004-cü ildə başlayıb və Göyçay rayonunda fəaliyyət göstərən müxtəlif təşkilatlarda çalışıb. 21 sentyabr 2020-ci ildə hərbi səfərbərliyə cəlb olunub. 25 oktyabr 2020-ci il tarixində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 2014-cü ildən "Göyçay Sukanal" TSC-də çilingər vəzifəsində işləyib. Evli idi, bir azyaşlı övladı var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Elvin Nizami oğlu Mikayılov ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilib.

Niyaməddin Hüsaməddin oğlu Sultanzadə

10 sentyabr 1998-ci ildə Masallı şəhərində anadan olub. 2005-ci ildə Masallı şəhər 1 saylı tam orta məktəbinə qəbul olub, 2016-cı ildə həmin məktəbi bitirib. 2016-2017-ci illərdə hərbi xidmətdə olub. 10 oktyabr 2018-ci ildə 3 saylı regional Sukanal İdarəsinin Masallı sukanal sahəsində xlorator sutəmizləyici qurğularının operatoru peşəsinə işə qəbul olunub. 29 sentyabr 2020-ci ildə hərbi səfərbərliyə cəlb olunub. 06 noyabr 2020-ci il tarixində Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Niyaməddin Hüsaməddin oğlu Sultanzadə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilib.

Döyüşlərdə yaralanmış həmkarlarımız

Atayev İsmayıl Oruc oğlu

Nəzarət Ölçü Cihazları İdarəsinin Binəqədi Sukanal İdarəsi üzrə su kəməri təsərrüfatının nəzarətçisi



Heydərli Fərid Rasim oğlu

Nərimanov Sukanal İdarəsinin Sukanal sistemlərinin təhlili şöbəsinin qəza-bərpa işləri üzrə çilingəri

Əmrahov Fariz Ələmdar oğlu

Nəzarət Ölçü Cihazları İdarəsinin Sabunçu Sukanal İdarəsi üzrə su kəməri təsərrüfatının nəzarətçisi

Tağıyev Kənan Cavanşir oğlu

"Bakı Sukanal" İdarəsinin Binəqədi nasos stansiyasının təmirçi-çilingəri

Mustafazadə Rəfael Camal oğlu

Nəzarət Ölçü Cihazları İdarəsinin Yardımlı Sukanal Sahəsi üzrə su kəməri təsərrüfatının nəzarətçisi

Haqverdiyev Mehman Hüseynalı oğlu

Nəqliyyat və Xüsusi Texnika İdarəsinin avtomobil sürücüsü

Ağamalızadə Mirhəmzə Ağamalı oğlu

Suraxanı Sukanal İdarəsinin su və kanalizasiya şəbəkəsinin istismarı sahəsinin ustası



Rzayev Pərvin Həsən oğlu

Nəqliyyat və Xüsusi Texnika İdarəsinin avtomobil sürücüsü

Qasımzadə Zülfüqar İnqilab oğlu

Mingəçevir Sukanal İdarəsinin su kəməri təsərrüfatının nəzarətçisi

Əliyev Sabir Şirinəli oğlu

Biləsuvar Sukanal Sahəsinin istismarın təşkili və idarə olunmasına nəzarət qrupunun mexaniki

Quliyev Vüsal Tahir oğlu

Mingəçevir Sukanal İdarəsinin su və kanalizasiya sistemlərinin istismarı sahəsinin operatoru

Talıbov Nizami Şamməd oğlu

Lerik Sukanal Sahəsinin sutəmizləyici qurğular üzrə operatoru

İsmayılov Ürfan Yaqub oğlu

Mingəçevir Sukanal İdarəsinin elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru

Nəzirov Xeyrulla Aləddin oğlu

Neftçala Sukanal Sahəsinin modul tipli sutəmizləyici qurğular üzrə operatoru



Nəsibov Alı Mübariz oğlu

Yevlax Sukanal Sahəsinin modul tipli sutəmizləyici qurğularının istismarı qrupunun operatoru

Bəşirov İsmət Naib oğlu

Neftçala Sukanal Sahəsinin modul tipli sutəmizləyici qurğular üzrə operatoru

Quliyev Vasif Qasım oğlu

Tərtər Sukanal Sahəsinin istismarın təşkili və nəzarət edilməsi sahəsinin nasos quruğularının maşinisti

Qəhrəmanov Mahmud Yaqub oğlu

Naftalan Sukanal Sahəsinin istismarın təşkili və idarə edilməsinə nəzarət qrupunun kran maşinisti

"Azərsu" ASC əməkdaşlarının şəhid olmuş ailə üzvləri

Tağıyev Bəhruz Azər oğlu
Qax Sukanal Sahəsinin qrup rəhbəri
Azər Tağıyevin oğlu

Kərimov Elmir Rəhim oğlu
Balakən Sukanal Sahəsinin energetiki
Rəhim Kərimovun oğlu

Məmmədov Elvin Eldəniz oğlu
Ağdaş Sukanal Sahəsinin təmirçi-çilingəri
Eldəniz Məmmədovun oğlu

Paşayev Məhəbbət Vaqif oğlu
Oğuz Sukanal Sahəsinin təmirçi-çilingəri
Vaqif Paşayevin oğlu

Zərbalıyev Ziyad Nəriman oğlu
Şamaxı Sukanal Sahəsinin təmirçi-çilingəri
Nəriman Zərbalıyevin oğlu

Yaqubov Hümmət Mərhəmət oğlu
Kür Su Təchizatı İdarəsinin təmirçi-çilingəri
Mərhəmət Yaqubovun oğlu

Hüseynov İlqar Yaşar oğlu
Qazax Sukanal Sahəsinin təmirçi-çilingəri
Yaşar Hüseynovun oğlu

Məmmədov Sadiq Mübariz oğlu
Siyəzən Sukanal Sahəsinin təmirçi-çilingəri
Mübariz Məmmədovun oğlu

Məhəmmədəlizadə Məhəmmədəli Asif oğlu
Ağdam Sukanal Sahəsinin təmirçi-çilingəri
Asif Məmmədovun oğlu

Behbudov Nofəl Həmid oğlu
Goranboy Sukanal Sahəsinin operatoru
Həmid Behbudovun oğlu

Sadıqov Elgün Heydər oğlu
Bərdə Sukanal Sahəsinin avtomobil sürücüsü
Heydər Sadıqovun oğlu

Rəhimov Zamin Vahid oğlu
Binəqədi rayon Sukanal İdarəsinin maşinisti
Leyla Rəhimovanın həyat yoldaşı

Məmmədov Elman Elçin oğlu
Xəzər rayon Sukanal İdarəsinin maşinisti
Elçin Mamedovun oğlu

Quliyev Turab Əlisafa oğlu
Kür Su Təchizatı İdarəsinin maşinisti
Əlisəfa Quliyevin oğlu

Mehtili Eşqin Tərlan oğlu
Beyləqan Sukanal Sahəsinin maşinisti
Tərlan Mehtiyevin oğlu

Vəliyev Elyar Arif oğlu
Qobustan Sukanal Sahəsinin maşinisti
Arif Vəliyevin oğlu

Xancanov Təbriz Məhəmmədəli oğlu
Ucar Sukanal Sahəsinin ekskavator maşinisti
Məhəmmədəli Xancanovun oğlu

Şirinzadə Elnur Xalıqverdi oğlu
Yevlax Sukanal Sahəsinin gözətçisi
Gültəkin Nəsibovanın oğlu

Məmmədli Məhəmməd Murad oğlu
Mingəçevir Sukanal İdarəsinin yaşıllaşdırma üzrə fəhləsi Mehriban Məmmədovanın oğlu

Şabanov Rüfət Rauf oğlu
Ceyranbatan Su Təchizatı İdarəsinin dalandarı
Kifayət Şabanovanın oğlu

Döyüşlərdə iştirak etmiş həmkarlarımız

"Azərsu" ASC-nin İdarə Aparatı

Səmədov Ramil Rafiq oğlu	Şöbə rəisinin müavini
Cəlilov Mübariz Natiq oğlu	Mühəndis
Əkbərov Mikayıl Fəzail oğlu	Mühəndis

"Bakı Sukanal" İdarəsi

Qasımov Filman Məhərrəm oğlu	Mühəndis
İbrahimov Emil Azər oğlu	Mühəndis
Abdullayev Tural Məmməd oğlu	Mühəndis
Qurbanov Samir Zakir oğlu	Mühəndis
Hüseynov Hafiz Fəyyaz oğlu	Usta
Cabbarov Tural Ramiz oğlu	Operator
Ələkbərov Məlik Yaşar oğlu	Operator
Mustafayev Vüqar İbrahim oğlu	Operator
Hacızadə Kənan Nizami oğlu	Təmirçi-çilingər
Hüseynov Elnur Cəbrayıl oğlu	Təmirçi-çilingər
Hüseynov Hüseyn Müsəf oğlu	Çilingər
Almuradov Amil Rəcəb oğlu	Çilingər
Əliyev Heydər Salman oğlu	Maşinist
Baxşalıyev Arif Amil oğlu	Maşinist
Kazımov Orxan Etibar oğlu	Maşinist
Quliyev Bəhlul İmran oğlu	Yaşıl tikinti fəhləsi
Ağayev İlqar Vaqif oğlu	Yaşıl tikinti fəhləsi

"Gəncə Sukanal" TSC

Nuriyev Dərgah Vüqar oğlu	Operator
Xuduyev Rövşən Yaşar oğlu	Təmirçi-çilingər
İbrahimov Ülfan Müqalib oğlu	Nəzarətçi
Abbasov İman Cavanşir oğlu	Maşinist
Əliyev Vüsal Şahin oğlu	Maşinist

Mingəçevir Sukanal İdarəsi

Vəliyev Adil Nəsib oğlu	Şöbə rəisi
Əbdürəhmanov Tofiq Fərrux oğlu	Mühəndis
Abdullayev Emin Sahib oğlu	Mühəndis
Məmmədov Rauf İsmayıl oğlu	Usta
Məmmədov Rüfət Fərrux oğlu	Nəzarətçi
Musayev İsmayıl Əvəz oğlu	Ekskavator maşinisti
Əliyev Coşqun İsmayıl oğlu	Maşinist

Şirvan Sukanal İdarəsi

Əlirzayev Ağasəlim Saleh oğlu	Mühəndis
Muradov Zahid Safalı oğlu	Mühəndis
Əmənov Elvin Afik oğlu	Nəzarətçi

Göyçay Sukanal Sahəsi

Məmmədov Elgiz Taleh oğlu	Operator
Qarayev Əli Əhməd oğlu	Operator
Rasulov Nicat Mirzalı oğlu	Maşinist
Yahyazadə Nəcəf Abdulla oğlu	Maşinist

Ağdaş Sukanal Sahəsi

Bəkirov Qabil Adil oğlu	Təmirçi-çilingər

Sumqayıt Sukanal İdarəsi

Heydərov Vidadi Qaryağdı oğlu	Mühəndis

"Sukanal" Elmi - Tədqiqat və Layihə İnstitutu

Quliyev Sənan Aydın oğlu	Şöbə rəisinin müavini

İsmayılov Seymur Zakir oğlu	Mühəndis
Məmmədov Fəqan Fərman oğlu	Topoqrafiya mütəxəssisi
Əhmədov Elvin Səxavət oğlu	Qazmaçı köməkçisi

"Sutikinti" Müəssisəsi

Məmmədov Nazim Məhəmməd oğlu	Təmirçi-çilingər
Şükürov Səlim Musa oğlu	Dülgər

Ceyranbatan Su Təchizatı İdarəsi

Əliyev Musa Nəriman oğlu	Mühəndis-texnoloq
Təzəxanov Elvin Əlixan oğlu	Mühəndis-texnoloq
Mustafayev Emin Nazim oğlu	Mühəndis
Cabbarlı Firuz İlham oğlu	Usta
Cəfərov Eltun Yasəf oğlu	Şəbəkə baxıcısı
Ömərov Emin Ziyaməddin oğlu	Şəbəkə baxıcısı

Nəqliyyat və Xüsusi Texnika İdarəsi

Tağızadə Nurlan Arzu oğlu	Mühəndis
Tağızadə Toğrul Murad oğlu	Sürücü
Quliyev Elməddin Rüstəm oğlu	Sürücü
Nəcəfli Sahibəli Yaqub oğlu	Sürücü
Nəbiyev Alxan Sərxan oğlu	Sürücü
Əliyev Yusif Sahib oğlu	Sürücü
Məmmədov Cavid Əlisurət oğlu	Sürücü
İmamverdiyev Nicat Əmrah oğlu	Sürücü
Həmidov Bayram Pənah oğlu	Ekskavator maşinisti
Vəliyev Elçin Murad oğlu	Avtokran maşinisti
Tağıyev Məhəmməd İbrahimxəlil oğlu	Çilingər

Nəzarət Ölçü Cihazları İdarəsi

Bayramov Fəxri Usub oğlu	Mühəndis-qrup rəhbəri
Hümbətov Hafiz Valeh oğlu	Mühəndis
Osmanlı Elnur Vidadi oğlu	Mühəndis
Əsgərov İlkin Məmmədtağı oğlu	Mühəndis
Şıxlinski Turxay Mehdi oğlu	Mühasib
Rəhimli Xəyal İlqar oğlu	Nəzarətçi
Məmmədov Çingiz Rəfail oğlu	Nəzarətçi
Gülməmmədli Saalar Məlik oğlu	Nəzarətçi
Namazov Raqif Səttar oğlu	Nəzarətçi
Məmmədov Azər Firudin oğlu	Nəzarətçi
Məmmədov İbrahim İslam oğlu	Nəzarətçi
Əşrəfov Devran Elfan oğlu	Nəzarətçi
Aşurov Alim Nəsibxan oğlu	Nəzarətçi
İbrahimov Fərid Xəyyam oğlu	Nəzarətçi
Quliyev Zabil Rza oğlu	Nəzarətçi
Rzayev Xalid Qəzənfər oğlu	Nəzarətçi
Məmmədov Arif Maarif oğlu	Nəzarətçi
Əliyev Şəmsi Ceyhun oğlu	Nəzarətçi
Hüseynov Elşən Elçin oğlu	Nəzarətçi
Arslanov Eldar Elxam oğlu	Nəzarətçi
Məmmədov Samir Tahir oğlu	Nəzarətçi
Kamilov Əmrah Gümrah oğlu	Nəzarətçi
Hacıyev Məhərrəm Fərhad oğlu	Nəzarətçi
Məmmədov Nicat Kərim oğlu	Nəzarətçi
Eyvazov Faiq Cülü oğlu	Çilingər
Cümşüdlü Haldun Xanlar oğlu	Çilingər
Bayramov Bayram Murad oğlu	Çilingər

Nərimanov Rayon Sukanal İdarəsi

Quliyev Cəlal Zahid oğlu	Mühəndis
Dadaşov Fərid Fuad oğlu	Mühasib

Nizami Rayon Sukanal İdarəsi

İsmayılov Elvin İntiqam oğlu	Usta
Quliyev Xəlil Qabil oğlu	Çilingər
Qəmbərli İsmayıl Həmid oğlu	Çilingər

Qaradağ Rayon Sukanal İdarəsi

Əhmədov Ramil Ramiz oğlu	Təmirçi-çilingər
Qurbanov Zamiq Namiq oğlu	Çilingər
Əliyev Vüsal İntiqam oğlu	Çilingər

Sabunçu Rayon Sukanal İdarəsi

Hasilli Şəhriyar Bəxtiyar oğlu	İqtisadçı
Həsənov Yusif Ağa Əli oğlu	Çilingər

Səbail Rayon Sukanal İdarəsi

Hüseynzadə Cavid Yaşar oğlu	Usta
İmanov Zakir Yusif oğlu	Çilingər

Suraxanı Rayon Sukanal İdarəsi

İsayev Qurban Həsən oğlu	İqtisadçı

Xətai Rayon Sukanal İdarəsi

Həsənov Elgiz Arzu oğlu	Usta

Xəzər Rayon Sukanal İdarəsi

Əhmədov Tural Qaməddin oğlu	Mühəndis
Cəfərzadə Cahangir Elşad oğlu	Qaynaqçı

Yasamal Rayon Sukanal İdarəsi

Ağamirzəyev Orxan İçran oğlu	Usta
Məsməlizadə Müslüm Nəsimi oğlu	Çilingər

Bağlar Sukanal İdarəsi

Cəbrayıllı Vüqar Asif oğlu	Qaynaqçı

Qusar Sukanal Sahəsi

Balakişiyev Elvin Alik oğlu Operator

Şabran Sukanal Sahəsi

Osmanlı Vüqar Rahim oğlu Mühəndis
Aslanov Təbriz Zeynal oğlu Təmirçi-çilingər

Xızı Sukanal Sahəsi

Hacıyev Murad Məmmədrza oğlu Mühəndis

Siyəzən Sukanal Sahəsi

İsmayılov Pərviz Mirələkbər oğlu Mühəndis-texnoloq

Quba Sukanal Sahəsi

Əsədov Nicat Allahverdi oğlu Təmirçi-çilingər

2 №-li Regional Sukanal İdarəsi

Əlirzayev Sübhan Həsən oğlu Mühəndis
Xasməmmədov Rza Alik oğlu Mühəndis

Ucar Sukanal Sahəsi

Səlimov Yolçu Mehman oğlu Operator
Həsrətov Orxan Rəcəb oğlu Operator
Şiralıyev Coşqun Mayıs oğlu Operator
İsmayılov Fəqan Valik oğlu Təmirçi-çilingər

Şamaxı Sukanal Sahəsi

Osmanov Şamil Mirkamil oğlu Təmirçi-çilingər
Mursaliyev Tumarxan Hakim oğlu Çilingər-elektrik

Zərdab Sukanal Sahəsi

Mustafazadə Fəda Abduləli oğlu Mühəndis
İsgəndərov İlkin İlham oğlu Sürücü
Eyvazlı Sabutay Gəray oğlu Çilingər

Astara Sukanal Sahəsi

Hacızadə Umud Ramiz oğlu Mühəndis

Lənkəran Sukanal Sahəsi

Qəmxarov Namiq Ağacan oğlu Mühəndis-texnoloq

Salyan Sukanal Sahəsi

Şakirzadə Fürqan Zakir oğlu Operator

Biləsuvar Sukanal Sahəsi

Nərimanov Toğrul İbarət oğlu Montyor

Sabirabad Sukanal Sahəsi

Qasımlı Qasım Famil oğlu Operator

İmişli Sukanal Sahəsi

Əmiraslanov Əlfiqan Əfqan oğlu Mühəndis
Əzimov Toğrul Babək oğlu Operator

Hacıqabul Sukanal Sahəsi

Vəliyev Camal Böyükxan oğlu Usta

5 №-li Regional Sukanal İdarəsi

Həsənov Şirin Həsən oğlu Mühəndis

Beyləqan Sukanal Sahəsi

Cəlladlı Nüsrət İkram oğlu Operator

Füzuli Sukanal Sahəsi

Qasımov Sadıq Vahid oğlu Sürücü

Tərtər Sukanal Sahəsi

Qurbanlı Kamil Şükür oğlu Təmirçi-çilingər
Əhmədli Fərid Rövşən oğlu Maşinist
Hacızadə Rəhim Siyavuş oğlu Gözətçi

Xocavənd Sukanal Sahəsi

Əliyev Elgün Novruz oğlu Montyor
Süleymanov Ceyhun Azər oğlu Şəbəkə baxıcısı

6 №-li Regional Sukanal İdarəsi

Soltanov Elşad Fərhad oğlu Mühəndis
Hacızadə İftixar Çingiz oğlu Mexanik

Balakən Sukanal Sahəsi

Kərimov Rəhim Həkim oğlu Energetik

Oğuz Sukanal Sahəsi

Əhmədov Fərid Azər oğlu Mühəndis-texnoloq

Qax Sukanal Sahəsi

Mehdizadə Fizuli Elçin oğlu	Təmirçi çilingər
Məmmədli Vüqar Məmməd oğlu	Gözətçi

Zaqatala Sukanal Sahəsi

Rəhimli Vüsal Cəfər oğlu	Mühəndis-qrup rəhbəri

Goranboy Sukanal Sahəsi

Səfər İlkin Əbülhəsən oğlu	Mühəndis-qrup rəhbəri
Eyvazov Sadiq Mikeyil oğlu	Usta

Göygöl Sukanal Sahəsi

Əliyev Tural Burzuband oğlu	Təmirçi-çilingər
Nəsibov Pürhan Qılman oğlu	Montyor

Yevlax Sukanal Sahəsi

Allahverdiyev Asif Oktay oğlu	Maşinist

Daşkəsən Sukanal Sahəsi

İbrahimov Emin Mirdamət oğlu	Sürücü

Samux Sukanal Sahəsi

Atai Rüstəm Müzadil oğlu	Energetik
Səmədov Əkbər Rəşid oğlu	Operator
Pirməmmədov Orxan Şikar oğlu	Operator

8 №-li Regional Sukanal İdarəsi

Cəfərov Elnur Eldar oğlu	Mühəndis
İbrahimov Murad İlham oğlu	Sürücü

Tovuz Sukanal Sahəsi

Həsənov Pərviz Yunis oğlu	Sürücü

Ağstafa Sukanal Sahəsi

Mustafazadə Uday Nəsimi oğlu	Energetik
Mustafayev Aslan Şöhrət oğlu	Maşinist
Məmmədov Qabil Hidayət oğlu	Operator
Qasımov Röyal Aftandil oğlu	Gözətçi
Vəliyev Şadiman Qasım oğlu	Gözətçi

Qazax Sukanal Sahəsi

Hüseynov Çingiz Faiq oğlu	Qrup rəhbəri

Şəhid və yaralı əməkdaşların ailələrinə yardım edilib

Vətən müharibəsində şəhid olmuş, yaralanmış əməkdaşlara və onların ailə üzvlərinə "Azərsu" ASC və Azərbaycan Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən maddi və ərzaq yardımları edilib. Hərbi əməliyyatlar zamanı "Azərsu" ASC-nin 3 əməkdaşı şəhid olub, 18 əməkdaşı yaralanıb. Səhmdar Cəmiyyətdə çalışan 20 əməkdaşın ailə üzvü şəhid olub, 48 nəfərin isə ailə üzvü döyüşlərdə yaralanıb.

"Azərsu" ASC-nin əməkdaşları şəhid və yaralıların ailələrinə baş çəkib onların qayğıları ilə maraqlanıb. Qeyd olunub ki, xalqımız vətən qarşısında borcunu qəhrəmanlıqla yerinə yetirərək şəhid olmuş və yaralanmış gənclərimizlə fəxr edir. Ali Baş Komandan, Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı hamımız, hər bir azərbaycanlı üçün örnəkdir.